# İgid ömrü

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.**

## *Nazim Hüseynov: "Füzulini Əsgəran GPZ-sində susdura bilmədilər"*

Fiqurə xanımın xatirələrini yeri gəldikcə sizlərin diqqətinə çatdıracağam. Hələliksə, Füzuli-Zamin xarakterinin açılması üçün onun yaşıdlarının, dostlarının dedikləri ilə davam edək. Əslində dostların dedikləri də bir kitabdəftərə sığası deyil. Onları da "İgid ömrü" kitabı boyu müxtəlif aspektlərdən işıqlandıraq ki, bu qəhrəman azərbaycanlı oğlunu səmimiyyətlə anıb, onun indiki və gələcək nəsillərə bilavasitə örnək olduğu faktlarını dəqiq-dürüst, mübaliğəsiz çatdıra bilək. Bu məqamda Füzulinin uşaqlıq, gənclik, döyüş, əqidə dostu, yaşıdı və qonşusu, həm də Xocalı aeroportunun polislərindən olan Nazim Hüseynovun dediklərindən bir hissəni oxuyun. Etiraf etməyi özümə borc bilirəm ki, Nazim həm də Fiqurə xanımla birgə mərhum dostu haqqında bilgiləri əldə edə bilməyimdə mənə çox böyük köməkliklər göstərdi. Onunla Xocalı batalyonunun sabiq komandiri, əslən məşhəti türkü Sərvər Rəcəbovun dünyamızdakı sonuncu günlərinə - Sabirabad rayonunun Ahıska kəndinə yetişib, onu da birgə danışdırmışıq. Qarşıdakı yazıları qaçırmayın. Hələ çox mətləblərdən agah olacaqsınız. Nazim məni Füzulinin dost-tanışları ilə görüşdürdü, bu müsahibə isə bizim Nazimlə tanışlığımızın başlanğıcıdır. Bakıdakı fəaliyyətini xocalılı qaçqınların bir qisminin məskunlaşdığı Azərbaycan Texniki Universitetinə məxsus tələbə yataqxanasına bağlayan Nazimlə elə bu ünvanda da görüşürük. Yeri gəlmişkən, bu insanlarla məni bağlayan bir sıra cəhətlər də var. Əvvəla, mərhum Füzuli də, Nazim də mənim həmyaşıdlarımdı. Nazimlə görüşdüyüm ünvan isə Bakı Dövlət Universitetindən üzü yuxarı Yasamalda "tələbə şəhərciyi" sırasıdır ki, mənim tələbəlik illərim buralara çox nostalji hisslərlə bağlıdı. Xocalılıların burada məskunlaşdığı vaxtlar bizim universitet və təbii ki, bu ərazilərlə müəyyən mənada xudafahizləşdiyimiz zamanla üst-üstə düşür. Bu hisslər altında xeyli duyğulandıqdan sonra Nazimlə söhbətə başlayıram.

**"Füzulinin babası Kərim kişi təpərli insan idi, qan bağlayardı"**

**- Füzuli ilə ilk tanışlığınızı xatırlayırsız?**

- Yaxşı xatırlayıram. Biz əslən Laçın rayonundanıq. Xocalıda gəlib Füzulinin babası rəhmətlik Kərim kişinin qonşuluğunda məskunlaşmağımızın əsas səbəbkarı elə Kərim kişinin özü olub. Kərim kişi çox diplomat, savadlı, təpərli kişi idi. Sözünün kəsəri vardı, qan bağlayardı. Elin dili ilə desək, keçmiş kişilərdən idi, ədavət yaratmaz, əksinə, adamları, küsülüləri barışdırardı. Bir sözlə, çox ədalətli bir adam idi.Tərtərin Hüsənli kəndində qızı rəhmətə gedəndən sonra köçüb Kəlbəcərdə Alaqayada yaşamışdı. Sonradan Xocalıya köç eləmişdi. Onun gəlişindən sonra - 1986-cı ildə Füzuli ilə ilk tanışlığımız oldu. Ermənilərin yaşadığı Kətik kəndinin tut bağları var idi o ərazidə.

**- Yeri gəlmişkən, Kətik erməni sözü idi?**

- Kətik, Naxçıvanik - əslində bizim sözlərdən yaranıb bu ifadələr. Sadəcə, sözlərin formasını dəyişdirib öz dillərinə uyğunlaşdırıblar.

**- Aydındı...**

- Hə, Füzuli ilə bu tut bağlarında üz-üzə gəldik ilk dəfə. Hələ bir balaca da savaşan kimi olduq. Bilirsiniz, onda bir inadkarlıq var idi. Onu öldürərdin, qabağından yeməzdi. Bir az bir-birimizi tutub sıxçaladıq, dedim axı sən kimsən? Cavab verdi ki, Kərim kişinin nəvəsiyəm. Kərim mənim babamdı deyəndə qayıtdım ki, axı biz qohumuq, niyə savaşırıq. Elə o tut bağından da aramızda



səmimi bir münasibət yarandı. Çünki Kərim kişiyə bizim böyük hörmətimiz var idi. Bizim orda yer alıb tikilməyimizə səbəbkar olmuşdu. Üstəlik, qürurlu, məntiqli kişiydi, əsl ağsaqqal idi, qan işini gedib həll edən, bağışlayan bir adam idi. Sonradan gəlib qonşu olduq. Bax, deyim ki, Füzuli ilə bizim aramızda "sənin-mənim evim" fərqi yox idi. Mən acanda gedirdim, Kərim baba oldu, ya həyat yoldaşı Tamaşa nənə idi, fərq eləmirdi, oturub onlarda yeyirdik, ya bizdə yeyirdik. Bir-birimizə o qədər doğmalaşmışdıq ki... Sonradan onu yaxından tanıdıqca bildim ki, uşaq vaxtı anasını, ardınca atasını itirib. Babası götürüb bunu himayəsinə, babasının qanadı altında yaşayıb. Xalası Səkinə arvad elə bütün ömrünü bu iki uşağa - bacısı balalarına həsr edib və s. Tanışlaşıb beləcə yaşamağa davam etdik Xocalıda.

**Xocalının qara günlərinin başlanğıcı - 1988-ci il**

**- Hadisələr nə vaxt başladı Xocalıda?**

- 1988-ci ilin Novruz bayramında hadisələr artıq başladı. Bu, Füzulini ilk andan narahat etdi. Tez-tez cavanları yığıb deyirdi ki, bu şərəfsiz ermənilərə baxın, gəlib bizim çörəyimizi yeyirlər, indi bizdən torpaqlarımızı da almaq istəyirlər. Bunları axır bir dənəsinə qədər qırmaq lazımdı. Biz də deyirdik ki, ə Füzuli, bəsdi də, qurtar bu söhbəti, sən Fantomas-zad deyilsən ki, gedib bütün ermənini qırasan. İndi inşallah qismət olar, bir yolla qisasımızı alarıq. Sonra bir qanlı olay baş verdi. Elə səksən səkkizinci il idi. Bir də gördüm ki, Xocalıdan erməni maşınları keçir, Füzuli də çıxıb erməni maşınlarını təkbaşına daş-qalaq edir. Soruşdum nə olub? Qaçdıq biz də ora. O zaman komendant saatı tətbiq olunmuşdu. Gördük Füzulini rus əsgərləri aparırlar Əsgərana. Mən çıxdım, sonra ikiüç nəfər - Şükür idi, Əkbər idi, İsrail idi - rus əsgərləri ilə əlbəyaxa olduq. Onlarda dəyənəklər var idi, amma birtəhər Füzulini dartıb onların əlindən aldıq. Bu zaman əlavə qüvvələr gəldi, bizim hamımızı da onun gözünə basıb birbaşa apardılar Əsgərana, komendaturaya. İndiki kimi yadımdadı. Axır çərşənbə günüydü. O günü biz Əsgəran "KPZ"-sinin içərisində keçirdik. Orda da bilmirik başımıza nə gələcək. Ruslar nəzarət eləyir, onlara da etibar yoxdu. Füzuli isə KPZ-nin içində də susmur. Orda da erməni milisləri var, amma heç nəyə məhəl qoymur, bunları nəyi var söyür. Deyirdi qoy gəlib məni öldürsünlər, amma mən onları təhqir edəcəyəm, qanım bahasına olsa da...

Gəlib hərəmizi atdılar ayrı-ayrı otaqlara. Qapını döyürəm, deyirəm söyüş söymə. Cavab verir ki yox, bunları belə-belə olsun-filan, sakitləşmir. Bir ucdan deyir ki, bunlar, yəni əraziyə nəzarət edən ruslar bizim torpaqlarımızı alıb öz dindaşlarına vermək istəyirlər, ermənilər kimdi axı, onlar bizim qonağımızdı. İnanın Allaha, o orda bir pəstah çıxardı, bir oyun çıxardı, mən şəxsən deyim ki, səsimi kəsib sakit oturdum. Çünki bildim ki, burda başqa şeylər danışmaq, artıq hərəkət eləmək olmaz. Amma onun o danışığı, hərəkəti qanına, ölümünə idi. Deyirdi qoy lap məni öldürsünlər, amma mən onları təhqir edəcəm. Səhərisi Xocalının icra başçısı Elman Məmmədov, bir də tatar millətindən olan komendant gəldilər. Komendant dedi mən də müsəlmanam, sizi Novruz bayramına görə bağışlayıram. Mən ona cavab verib söylədim ki, biz bəyəm neyləyirik, ermənilər silahla vurur, bizimkilər də daş atıblar da. "Kolon" gəlib keçənə qədər uşaq-böyük hamısı qanına qəltan olunur, bunun qarşılığında biz neyləmişik ki... dedim bəs sənin başına bu işləri gətirsələr, döysələr-söysələr qəbul edərsən?! Dedi yox. Dedim bəs biz necə qəbul eləyək?! Dedi amma olmaz da, komendant saatı qoyulub, ona əməl etmək lazımdı. Bax, elə həmin günlərdən də həm Xocalının qara günləri başladı, həm də Füzulinin iztirabları artdı.

**Evin tək oğlu olduğuna görə ona qıymırlar, amma...**

**- Füzuli daha gecələr yata bilmədi...**

- Bəli. Belə də oldu. Qət elədi ki, nəyin bahasına olursa-olsun erməniyə ziyan vuracaq. Bax, o aeroportun, körpünün partladılmasında deyirdilər ki, Füzulidən gizlin getmək lazımdı. Bilirsiniz niyə? Çünki Füzuli evin bir oğlu idi. Bir bacı, bir qardaş idilər. Onu istəyən insanlar qıymırdılar ona. Deyirdilər ki, gedər başına bir hadisə gələr, bacısı Füqurənin gözünü dikdiyi bircə yerdən də ümidi üzülər, başsız qalar. Amma sən saydığını say... bir də görürdün ki, Füzuli hardansa növbəti plandan xəbər tutub, hamımızdan qabaq həmin hadisə yerindədi. Sonra getdi babasının qoyununu satdı deyəsən, bir sandıqlı tir tüfəngi aldı.

**- Babası silahları ondan əvvəlcə həyətdə gizlədib, sonra Ağcabədiyə göndəribmiş...**

*(Ardı 15-ci səh.)*

*(Əvvəli 14-cü səh.)*

- Hə, onu bilirəm. Amma yenə də hardansa tapıb, alıb gətirirdi silahları. Hardan, hansı yolla alıb gətirirdi, bilmirdik. Özü də o məsələdə heç kimə sirr verməzdi. Amma belə oturanda ürəyində nə varsa hamısını bölüşürdü bizimlə. Əlqərəz, o, əldə etdiyi bu tüfənglə çinar ağacının üstündə oturub erməni maşınlarına atmağa başlamışdı. Qeyrəti yol vermirdi. Deyirdi, bu erməni gəlib mənim torpağımda yaşasın, çörəyimi yesin, sonra da desin ki, torpağını da ver mənə, özün çıx, aparıb torpağı Ermənistana birləşdirirəm. Buna necə dözmək olar?! Həzm eləyə bilmirdi. 5-6 erməni maşınını daşa basmışdı, tir tüfəngi ilə vurmuşdu. Gəldilər həbs elədilər, Əsgəranda məhkəməsi oldu, getdi bir altı aya yaxın Şuşada həbsdə yatdı.

**Siz müsəlmansınız!.. Füzuliyə ənçox nə təsir edirmiş o zamanlar?!..Nazim deyir ki, ermənilərlə bərabər rus əsgərlərinə də əsəbiləşirdi o zaman. Daha doğrusu, onların ermənilərlə bizim aramızda qoyduqları ögey-doğmalığa.... Deyirdi ki, bu şərəfsizlərə bax, azərbaycanlıları ermənilər daş-qalaq edəndə səslərini çıxarmırlar, amma bizimkilər bir daş atan kimi özlərini yetirib bizimkiləri tutur, həbs edir, cəzalandırırlar.**

- Mən bir hadisəni qeyd edim. 1990-cı il idi. Dərs ili başlayırdı. Düz sentyabrın 1-i idi. Xankəndidəki Pedaqoji İnstitut qarışıqlıqlar səbəbindən müvəqqəti olaraq Şuşaya köçürülmüşdü. Onun tələbələri əhali ilə birlikdə altı avtobusla kolonla gəlib Əsgəranı keçdilər, Xocalını keçdilər, Ağa körpüsünün qabağında ermənilər rus əsgərlərinin gözünün qabağında bu camaatı saxlayıb daş-qalaq elədilər. Azərbaycanlılar bütünlüklə qan içindəydilər. Onları qaytarıb Xocalıda yaralarını sarıdılar, başqa yardımları etdilər. Həmin anda təsəvvür edin ki, bir erməni kolonu da gəldi keçməyə. Neyləməliyik?!.. Biz başladıq. Şappa-şarap bu kolonu verdik daşın ağzına. Aradan 10-15 dəqiqə keçməmiş 80-90 nəfərlik Xüsusi Təyinatlıları tökdülər camaatın üstünə, qoca-uşaq fərqi qoymadan vurdular orda bir neçə nəfərin qol-qabırğasını qırdılar. Camaatı asfaltın, palçığın üstündə yerə uzatdılar ki, siz niyə erməniyə daş atmısız?! Göstərdim ki, bəs burda başı-gözü yarılan bu qədər qadını, qızı, uşağı görmürsüz, buna niyə göz yumursuz? Yüyürdü üstümə məni vurmağa. Aralarında məni idmançı kimi tanıyan bir baş leytenat var idi, o dedi ki, ne troqay emu (toxunmayın ona). Yaxınlaşdım dedim ki, biz elə hamımız SSRİ vətəndaşlarıyıq da, eyni hüquqlu. Mən cinayət etmişəmsə, cəzalandırın, razıyam sizinlə, axı bunlar cinayət törədir, siz isə bu cinayətlərə göz yumursunuz, sizin ədalətiniz, qanununuz budu? Nəyə görə bizə belə fərqli mövqelərdən yanaşırsız? Mənə qayıdıb rusca dedi ki, fərq yalnız sizin müsəlman, bunlarınsa xristian olmalarındadır. Tarix boyu bu münasibət belə olub, belə də olacaq. Dedi sənin xatirini çox istəyirəm, amma fakt faktlığında qalır... Bax, onun bu dediklərini artıq hamımız dərk etməyə başlamışdıq. Bilirdik ki, bu məsələlərin sonu yaxşı heç nə vəd eləmir. Amma yenə də insan öz vətənini heç nədən qoyub getmir axı... İnsan öz doğma yerlərinə bağlıdı. Düşünürsən ki, mən torpağımı necə qoyub gedim? Mən nəyə görə erməniyə qoyub getməliyəm torpağımı? Bura Azərbaycan torpağıdı, mənim torpağımdı, mən burda doğulmuşam. Amma bu proseslərin axarı bizləri də hiddətləndirirdi. Füzuli isə belə düşünənlərin öndə gedənlərindən idi və nəyin bahasına olursaolsun, qəbul eləmirdi Xocalını tərk etməyimizi. Ondan sonra gedib o tir tüfəngini aldı, başladı maşınları verməyə o tirin ağzına. Həmişə ona deyirdik ki, belə işləri təkbaşına eləmə də, qoy məsləhətlə olsun, ancaq kimə deyirsən...

**- Füzuli həbsxanada yatarkən Şuşa həbsxanasına ermənilər nəzarət edirdi?**

- Yox, onda azərbaycanlılar var idi orda. Rus əsgərləri də nəzarət edirdilər o dövrdə milis idarələrinin, digər dövlət əhəmiyyətli yerlərin qorunmasına. Amma döyüb-incitməkləri var idi. Ruslarsa nəzarət edirdilər, qoymurdular, ən azı öldürməyə qoymurdular. Zaman keçdikcə bu məsələlər də öz məcrasından çıxdı.

Bu dövrdə Xocalı aeroportuna bir gündə 32 reys həyata keçirilirmiş... Xocalılılar fikirləşirlər ki, bunun qarşısını necə alsınlar. Aha?! Aeroportun partladılması bu səbəbdən baş verib. Nazim söyləyir ki, bu işdə birbaşa Füzulinin əməyi oldu. Xankəndinin yaxınlığında dəmiryol körpüsünün partladılmasında da Füzulinin xüsusi əməyi oldu (birdimi, beşdimi?!). Hətta erməniyə qarşı onsuz planlaşdırılan hər bir addımı, elə bil ki, yatıb yuxuda görürdü, özünü çatdırıb qabağa düşürdü, mütləq gəlib orda öz payını verməli idi (bu fikir, demək olar ki, Füzulinin bütün silahdaşlarının dilindən səslənib - N.Z. ). Elə bil qisməti beləydi vallah!..

*(ardı var)*

***Nəzirməmməd ZÖHRABLI***
***Jurnalist-publisist***